**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

№ 03

**Bakı şəhəri** "23" fevral **2019-cu il**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının 1-ci hissəsini, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi haqqında Əsasnamə"nin 5.8-ci, 5.10 - 5.14-cü bəndlərini və "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" 2018-ci il 6 noyabr tarixli 652 nömrəli Sərəncamını rəhbər tutaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Gəncə, Xaçmaz, Salyan, Şamaxı, Lənkəran, Tovuz, Şəki, Mingəçevir və Ucar regional bölmələrinin 2018-ci il üzrə fəaliyyətlərinə dair həmin regional bölmələrin rəhbərlərinin – müvafiq olaraq Hüseyn Abdullazadə, Adil Qaçabəyov, Samid Ağayev, İrfan İsgəndərov, Əlimuxtar Bağırov, Rauf Əlizadə, Murad Əsədov, Rauf Həsənov və Bulud Aslanovun hesabatları nəzərə alınsın.

Eyni zamanda, regional bölmə rəhbərlərinin diqqətinə çatdırılsın ki, statistik hesabatlar hazırlanarkən dövrilik gözlənilsin, təkrarçılığa, fakt və arqumentlər arasında uyğunsuzluqlara yol verilməsin, regional bölmənin fəaliyyətinin gücləndirilməsi ilə əlaqədar əsaslandırılmış təkliflər verilsin, iş prosesində qarşılaşdıqları problemlər səbəb və həll yolları açıq şəkildə ifadə olunmaqla, konkret, lüzumsuz təfsilatlar olmadan təqdim edilsin.

**2.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri tərəfindən müəyyən edilən rəhbər vəzifəli şəxslər arasında vəzifə bölgüsünə (kurasiyaya) uyğun olaraq, sahibkarlıq sahəsində aparılan yoxlamaların koordinasiya olunması və effektivliyinin artırılması, habelə qida təhlükəsizliyinə nəzarət sisteminin gücləndirilməsi ilə əlaqədar məsələlər daim nəzarətdə saxlanılsın və qeyd olunan sahələrin inkişaf etdirilməsi üçün müvafiq təhlillər aparılmaqla mütəmadi olaraq təkliflər təqdim edilsin.

**3.** Kollegiyanın məsul katibi Asif Əbdüləzimova tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

**4.** Bu Qərarın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Əsas:** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 2019-cu il 23 fevral tarixli iclasının protokolu.

**Kollegiyanın sədri** **Qoşqar Təhməzli**